Ədəbiyyat QƏZETİ

# *Musa ƏLƏKBƏRLİ - 75*



Hörmətli Musa Ələkbərli!

Sizi - tanınmış şairimizi 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik. Siz bədii yaradıcılığa çox erkən - hələ orta məktəbdə oxuyarkən başlamısınız və "Ürəkdən soruş" adlı ilk şeiriniz 1964-cü ildə Gədəbəydə çıxan "Tərəqqi" rayon qəzetində işıq üzü görmüşdür. Siz 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin (BDU) filologiya fakültəsinə qəbul olunmuş, tələbəlik illərində də yaradıcılığınızı uğurla davam etdirmiş və özünüzü istedadlı bir şair kimi ədəbi ictimaiyyətə tanıda bilmisiniz.

1971-ci ildə Hüseyn Hüseynzadənin (xalq şairi Hüseyn Arif) haqqınızda yazdığı "Uğurlu yol", "Bakı" axşam qəzetində çap olunmuş, ədəbiyyatımıza gənc bir şairin gəlişini inamla təsdiqləmişdir.

Siz 1974-cü ildə universiteti uğurla başa vurmuş və həmin ildən də "Gənclik" nəşriyyatında redaktor kimi əmək fəaliyyətinə başlamısınız. Nəşriyyatda işlədiyiniz 20 il müddətində 2000-dən artıq kitaba redaktorluq etmiş, onlarla kitaba Ön söz yazmış və bir çox kitabların tertibçisi olmusunuz.

"Məndən şeir istə" adlı ilk kitabınız 1977-ci ildə "Gənclik" nəşriyyatında çap olunmuşdur. Bundan sonra "Gənclik", "Yazıçı", "Zərdabi LTD" MMC nəşriyyatlarında çap olunan "Ürəyimin işığında", "Bəlkə bir də görüşdük", "Gözlərim yol çəkir", "Sevgi bulağı", "Aydanım ay işığı", "Gözümdə ağlayan bulud", "Dünya sevgidən doğulub", "Tanrı mənə söyləməsə, yazmaram", "Gəlir türkün səadəti", "Ata eşqi" və "Ürəyimin qapısından keçənlər" adlı şeir kitablarınız ədəbi ictimaiyyətin sevgi və rəğbətini qazanmışdır. Şeirləriniz ingilis, türk, rus, ukrayna, özbək, tacik, türkmən, moldav, latış, belarus və s. dillərə tərcümə olunmuşdur.

Siz iki dəfə dalbadal - 1976 və 1977-ci illərdə Aşqabadda və Düşənbədə keçirilən Ümumittifaq poeziya festivallarının iştirakçısı olmuş, bu möhtəşəm tədbirdə respublikamızın gənc ədəbi qüvvələrini ləyaqətlə təmsil etmisiniz.

Şeirlərinizə bir çox musiqi bəstələnmiş və bu mahnıların bir neçəsi məşhur müğənnilərimiz: Zeynəb Xanlarova, Flora Kərimova və Şahnaz Haşımova tərəfindən ifa edilmişdir. Yaradıcılığınız haqqında ayrı-ayrı vaxtlarda görkəmli sənətkarlarımız - Süleyman Rüstəm, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, İlyas Tapdıq, Elçin Əfəndiyev, Cəmil Əlibəyov, o cümlədən, istedadlı qələm sahibləri - Vasif Süleyman, Barat Vüsal; tanınmış tənqidçilərimizdən - Qulu Xəlilov, Nizami Cəfərov, Vaqif Yusifli, Kamran Əliyev, Buludxan Xəlilov və başqa şair və tənqidçilərimiz fikir söyləmiş, kitablarınız haqqında çoxlu məqalə və resenziyalar çap edilmişdir.

Şairə-ədəbiyyatşünas Sona Xəyal Sizin yaradıcılığınızdan bəhs edən "Musa Ələkbərli" adlı kitab çap etdirmişdir.

Şair və publisist Nəcibə İlkinin sizin poeziyanızdan bəhs edən "Sevginin Tanrısı var, ədəbiyyatımızın Musa Ələkbərlisi" monoqrafiyası da şeirsevərlər tərəfindən maraqla qarşılanmışdır. Tədqiqatçı şair Etibar Nadiroğlunun "Şeir məndən ötrü ömürdü, gündü.." kitabı da sizin bütöv yaradıcılığınızın geniş şəkildə təhlilinə həsr edilmişdir.

Sizin 2024-cü ildə "Elm və təhsil" nəşriyyatında çap edilən "Sözün qiyaməti qopan yerdəyəm" iritutumlu kitabınız (776 səh.) yaradıcılığınızın son illərdəki bəlli bir dövrünü əhatə edir.

Bu kitabda Qarabağ dərdi və Vətənimizin bütövlüyü uğrunda qəhrəman oğullarımızın milli mücadiləsinə həsr etdiyiniz şeirlər xüsusi maraq doğurur. Milli qəhrəmanımız Mübariz İbrahimovdan bəhs edən "Mübarizlik dəfsi" poemanız yaradıcılığınızın uğurlu nailiyyəti kimi diqqəti cəlb edir.

Siz 80-cı illərdə Sabir adına şəhər kitabxanasında fəaliyyət göstərən "Pərvanə" ədəbi birliyinə rəhbərlik etmiş, gənc ədəbi qüvvələrin yetişməsində əlinizdən gələni əsirgəməmisiniz. Ədəbi uğurlarınıza görə İsa İsmayılzadə və Şahmar Əkbərzadə adına poeziya mükafatına layiq görülmüsünüz.

Siz bütün şüurlu həyatınızı naşirliyə həsr etmisiniz. Hal-hazırda da "İncəsənət" qəzetinin redaktoru kimi əmək fəaliyyətinizi davam etdirirsiniz.

50 ildən artıq yaradıcılıq yolu keçən Siz - oxucuların sevimlisi, Prezident mükafatçısı Musa Ələkbərli indi də gənclik eşqi ilə yazıb-yaradırsınız.

Hörmətli Musa Ələkbərli!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**